> *“Jurnalistika böyük zəhmət, xüsusi səy, professional yanaşma, hadisələri obyektiv dəyərləndirmək və prosesləri düzgün analiz etmək bacarığı tələb edən sənətdir. Azərbaycan Prezidenti kimi mən mətbuat işçilərinin ağır və məsuliyyətli əməyini daim yüksək qiymətləndirmiş, mətbuatın inkişafı yolunda qarşıya çıxan problemlərin həll edilməsi üçün müntəzəm qayğı göstərmişəm və bundan sonra da göstərəcəyəm”.*
>
> ***Heydər ƏLİYEV***
> ***Ümummilli lider***

> *“Biz hamımız çalışırıq və çalışacağıq ki, ölkəmizi daha da gücləndirək, Azərbaycan xalqının daha da yaxşı rifahını təmin edək. Əlbəttə ki, burada həm iqtidarın üzərinə böyük funksiya, həm də mətbuatın üzərinə böyük vəzifələr düşür. Qeyd etdiyim kimi, mətbuat işçiləri bu vəzifələrin öhdəsindən şərəflə gəlirlər”.*
>
> ***İlham ƏLİYEV***
> ***Azərbaycan Respublikasının Prezidenti***

# “Əkinçi” Azərbaycanda milli demokratik mətbuatın inkişafında böyük rol oynadı

***Bizim eradan əvvəl IV minillikdə ilk ideoqrafik sistemlərin meydana gəlməsi protojurnalistikanın yaranması üçün ilkin şərtlərin formalaşmasına təkan verdi. Şifahi informasiyanın, nitqin ötürülməsi üçün yazıdan istifadə erkən şüurlu kommunikasiya təcrübəsi kimi dəyərləndirilə bilər. İbtidai icma quruluşu dövründə insanlar informasiyanın ötürülməsi, xəbərləşmə ehtiyacını ödəmək məqsədilə dildən, şifahi nitqdən əlavə yeni bir kommunikasiya vasitəsi axtarırdılar. Beləliklə, ətraf mühitdəki əşyalardan mnemonik vasitə kimi istifadə etməklə müxtəlif sözlərin, fikirlərin işarələnməsinə başlandı. Növbəti mərhələ piktoqrafiyanın, heroqliflərin meydana gəlməsi oldu.***



Heroqlif yazısı üçün papirusdan istifadə olunurdu. Yazı sağdan sola ilk vaxtlar şaquli, sonralar üfiqi sətirlərlə yazılırdı.

Əlifbanın kəşfi yazının formalaşmasında son mərhələ oldu. Bizim eradan əvvəl ikinci minilliyin ortalarında Şərqi Aralıq dənizi regionunda yaşayan finikiyalılar bəşəriyyət tarixində ilk dəfə olaraq hərflərdən istifadə edilən yazını kəşf etdilər. Finikiya yazısı 22 hərfdən ibarət idi. Bu hərflər səssiz hərflər idi. Səsli hərflər olmadığına görə mətnin mənasını anlamaq oxucunun öhdəsinə buraxılırdı.

Səssiz və səsli hərflərdən ibarət ilk əlifbanı bizim eramızdan əvvəl XI – VIII əsrlərdə qədim yunanlar kəşf etdilər. Bu əlifbanın yaradılmasında finikiya yazısından istifadə olunmuşdu. İlk vaxtlar yunan əlifbasında da səsli hərflər yox idi, onlar əlifbaya sonralar əlavə edildi. Təkmilləşdirilən yunan əlifbası 24 səssiz və səsli hərfdən ibarət idi. Bu əlifba tezliklə geniş yayıldı və antik cəmiyyətdə güclü kommunikasiya bazasına çevrildi.

Qədim Yunanıstanın antik irsinin varisi Roma mərkəzləşmiş dövləti oldu. Elladanı, Avropa ölkələrini, Asiya və Şimali Afrikanı ələ keçirən Qədim Roma zəngin yunan irsini mənimsəyərək antik irsi Aralıq dənizi regionu sivilizasiyasına çevirdi. Roma allahları panteonunda Fama (və ya Molva) soraq, şayiə, qeybət, informasiya ilahəsi idi.

Roma imperiyasının süqutundan sonra elm, bilik, maarif ruhanilərin və az qism mülki şəxslərin imtiyazı kimi qalmadı, təhsil alanların sayı artdı, informasiya axını gücləndi. Beləliklə, ilk qəzetlərin nəşri üçün zaman və şərait yetişdi. Lakin qeyd edək ki, o vaxta qədər Çində ilk qəzet nümunəsi artıq işıq üzü görmüşdü. Çində VIII əsrdə imperatorun fərmanları da dərc edilən “Paytaxt xəbərləri” nəşr olunurdu.

Avropada günümüzədək qorunub saxlanmış ilk bülleten 1493-cü ildə çap olunub. Bu bülletendə müqəddəs Roma imperiyasının imperatoru və Almaniya kralı III Fridrixin ölümü və dəfn mərasimi barədə ətraflı məlumat verilirdi. 1502-ci ildə Almaniyada çap olunmuş bülletendə ilk dəfə olaraq qəzet sözündən istifadə olunub. 1591-ci ildə alman din xadimi Konrad Lautenbaxın Frankfurtda buraxdığı “Yarmarka hesabatları” bülleteni böyük maraq doğurdu və 1806-cı ildə Napoleon işğalı dövründə fəaliyyətini dayandırdı.

Qəzet haqqında bugünkü təsəvvürə daha çox uyğun gələn ilk qəzet isə 1609-cu (bəzi məlumatlara görə 1605-ci il) ildə Strasburqda nəşr edilən “Relation: Aller Furnemmen”dir. İlk gündəlik qəzet hesab edilən “Einkommende Zeytinq” isə 1660-cı il yanvarın 1-dən Leypsiqdə nəşr edilib. Sonralar bu qəzet “Leipziger Zeiytung” adlandırılıb.

Avropanın müxtəlif şəhərlərində çap edilən çoxsaylı qəzetlər içərisində ictimai rəyə böyük təsir edən əsas mətbuat orqanı Parisdə kral XIII Lüdovikin sarayında 1631-ci il mayın 31-də fəaliyyətə başlayan “La Gazette” idi. Bu qəzet həftədə üç dəfə nəşr olunurdu. Fransanın ilk gündəlik qəzeti “Journal de Paris” 1777 – 1840-cı illərdə fəaliyyət göstərmişdir.

Avropada nəşr edilən qəzetlər, o cümlədən, 1621-ci il sentyabrın 21-də Londonda işıq üzü görən “Weekly News” (“Həftəlik yeniliklər”) qəzeti dünyanın müxtəlif ölkələrində mətbuatın meydana gəlməsinə böyük təsir göstərdi.

XVII əsrdə İngiltərədə mətbəələrə və mətbuata hakimiyyətin təzyiqinə cavab olaraq məşhur filosof Con Milton 1644-cü ildə “Areopaqitika” adlanan nitqində mətbuat, söz və fikir azadlığı ideyasını gündəmə gətirdi: “Mənə hər cür azadlıqdan əvvəl bilmək, danışmaq və öz məsləkimə uyğun sərbəst fikir yürütmək azadlığı verin”. Con Miltonun bu nitqi jurnalistika kanonları uğrunda gələcək mübarizənin ilk nümunəsi idi. İngilis cəmiyyəti bu mübarizənin nəticəsini çox gözləməli olmadı. 1689-cu ildə meydana gələn Qanunlar külliyatında fikir, söz və mətbuat azadlığı təsbit olundu, kralın mətbuatın fəaliyyətinə müdaxiləsi qadağan edildi.

XIX əsrin əvvəllərindən jurnalistika ictimai demokratiya institutu olaraq cəmiyyətin inkişafının mühüm amilinə çevrildi.

Rusiya imperiyasında vəziyyət Avropa ölkələri ilə müqayisədə mürəkkəb və ziddiyyətli idi. Təhkimçilik hüququnun ləğvinə, torpaq, məhkəmə, şəhər islahatlarının həyata keçirilməsinə baxmayaraq, müsəlmanlar hökumətin nəzərində yad ünsürlər olaraq qalırdılar, onların təhsili, maariflənməsi, mənəvi, mədəni və iqtisadi tələbatları barədə düşünənlər xalqdan təcrid olunur, təzyiqlərə məruz qalırdılar. Bu vəziyyəti Moskva universitetinin məzunu, görkəmli ictimai xadim, böyük maarifçi, alim, publisist, milli mətbuatın banisi Həsən bəy Zərdabi ürək ağrısı ilə belə təsvir edirdi: “Dünyada ittifaq olmasa heç bir cəmiyyət işi bina tutmaz. Bizim sabiq cəmiyyəti – xeyriyyə bina tutmadığından, teatr oynanan otaq boş qaldığından, aşkar oldu ki, müsəlman qardaşlarımızı bir yerə cəm edib, zəmanəyə müvafiq məktəbxanalar açdırıb, küçə və bazarlarda qalan uşaqları oxutmaq olmayacaq. Elmsiz də bu zəmanədə dolanmaq mümkün deyil. Ələlxüsus, bizim yerlərdəki qonşularımız elm təhsil edib günü-gündən irəli gedir,




bizim əlimizdə olan mülki-malımıza sahib olurlar və bir az vəqtdən sonra biz onlara rəncbərlik edib, onların malını daşımaqdan ötrü kirəkeşlik edəcəyik. Belədə nə qayırmalı? Hər kəsi çağırıram gəlməyir, göstərirəm görməyir, deyirəm qanmayır. Axırda gördüm ki, onları haraylayıb çağırmaqdan, onlara deməkdən başqa bir qeyri əlac yoxdur. Olmaz ki, mənim sözümü eşidənlərdən heç bir qanan olmasın!”.

Həsən bəy Zərdabi bu vəziyyətdən çıxış yolunu müdrikliklə müəyyənləşdirdi: “Belə də qəzeti çıxarmaqdan savayı bir qeyri əlac yoxdur ki, kağızın üstə yazılmış doğru sözlər qapı-pəncərədən o iman sahiblərinə çata bilsin. Heç olmaz ki, doğru söz yerdə qalsın”.

Təbii ki, hər bir işin ilki ağır olur, təcrübəsizlik, şəraitsizlik, maddi sıxıntılar, irəlicədən görünməsi mümkün olmayan problemlər bitib-tükənməyən çətinliklər yaradır. Həsən bəy Zərdabi həmin günlərin ağır düşüncələrini belə ifadə edir: “Bəs qəzetəni necə çıxardım? Pul yox, yazıçı yoldaşı yox, çapxana yox, hürufat yox, əmələ yox, 1-2 yüzdən artıq oxuyan da olmayacaq. Dövlət tərəfindən izin almaq da ki, bir böyük bəladır”.

Böyük maarifçi, millət fədaisi bu çətinlikləri bir təhər yoluna qoyub qubernator Dmitri Staroselskinin “Əkinçi” adlandırılmasını təklif etdiyi qəzetin nəşrə başlayacağına dair Qafqazın bütün şəhərlərinə və böyük kəndlərinə elanlar göndərir. Ancaq oxuma-yazma bilməyən, maddi sıxıntılar içində çırpınan məmləkətin əhalisi qəzet-kitab hayında deyildi. Zərdabi yazırdı: “İyul ayınacan 100 müştərim var idi ki, hərəsindən 3 manat, cümlətan 300 manat vüsul olmuşdu. Qubernator naçalniklərə hökm yazdı ki, hər bir kəndin yüzbaşısı qəzetə alsın. Bu tövr ilə 300 də müştərim artdı ki, cümlətan 1200 manata qədər qəzetə satılmaqdan vüsul oldu. Qəzetə əldə satdırmaq və elamnamə basdırmaq da ki, o vəqtdə yox idi, qəzetəni 8-9 yüzə qədər basdırdım. Onun 400-nü müştəri olanlara və artığını Bakının küçə və bazarlarında paylamaqdan savayı, qeyri şəhərlərə də müftə göndərirdim ki, qəzetə oxumağa adət etsinlər”.

Əslində, Həsən bəy Zərdabi qəzet buraxmaq fikrinə 1868-ci ildə düşsə də, dövrün bürokratik əngəlləri, hakimiyyət orqanlarında kök salmış süründürməçilik üzündən o, qəzetin nəşrinə icazə almaq üçün rəsmən yalnız 1873-cü ilin aprel ayında müraciət etmişdi. Beləliklə, bu böyük insanın Azərbaycan türkcəsində qəzet buraxmaq arzusu yalnız yeddi ildən sonra, 1875-ci ildə gerçəkləşmişdi.

İlk sayı 1875-ci il iyulun 22-də işıq üzü görən “Əkinçi” qəzetinin cəmi 56 nömrəsi çap olundu. Maarifçilik ideyasının daşıyıcısı olan bu qəzet milli ziyalılar nəslinin yetişməsinə böyük təsir göstərdi, özündən sonra yeni mətbu nəşrlərin fəaliyyətinə geniş yol açdı. Geniş xalq kütlələrini qəflət yuxusundan oyadaraq elm, təhsil, maarif, mədəniyyət, tərəqqi yoluna səsləyən böyük mütəfəkkir cahil mollaların, din xadimlərinin, milyonçuların aramsız hücumlarına məruz qalır, “sünni Həsən bəy” çağırılırdı, Allahsızlıqda ittiham edilirdi. Həsən bəy Zərdabinin əleyhdarları nifrət və qəzəb dolu hücumlarını getdikcə gücləndirirdilər.

“Əkinçi” Azərbaycanın, Qafqazın və bütövlükdə Rusiya imperiyasında yaşayan müsəlmanların mədəniyyətinin, iqtisadiyyatının, təhsilinin, siyasi həyatının inkişafına səy göstərdikcə daha çox müqavimətlə rastlaşır və düşmənlərinin sayı sürətlə artırdı. Belə bir şəraitdə ciddi, obyektiv, həqiqətpərəst mətbu orqan olmaq, xalqın hüquqlarını qorumaq əsl qəhrəmanlıq idi. Saysız-hesabsız sədləri aşmaq, maddi və texniki xarakterli maneələri aradan qaldırmaq çətin olsa da, Həsən bəy Zərdabi yorulmaq bilmədən çalışır, fədakarlıqla xalqına və millətinə xidmət edirdi. Onun müraciət etdiyi mövzular ictimai həyatdakı eybəcərliklər, mənfi təbəddülatlar olsa da, senzorların sayıqlığını zəiflətmək üçün “Əkinçi” bəzi mətləblər barədə üstüörtülü söhbət açır, ehtiyatlı davranırdı. Bütün bunlara baxmayaraq, xalqın qəflət yuxusundan oyanmasını, kütlələrin savadsızlıq və itaət zəncirindən azad olmasını istəməyən hakimiyyət dairələrinin təzyiqi ilə senzura həlqəsi getdikcə daralır, milli şüurun formalaşmasına əngəl törədən buxovlar artırdı.

Balkanlarda mövqeyini möhkəmlətməyə çalışan çar Rusiyası 1877-ci il aprelin 24-də Osmanlı imperiyası ilə müharibəyə başladı. Müdafiə döyüşləri aparan Türkiyə qoşunlarının müqavimətini qıran Rusiya ordusunun İstanbulun yaxınlığına qədər irəliləməsi ilə Osmanlı imperiyasının başı üzərini böyük təhlükə aldı. 1878-ci il fevralın 19-da İstanbul yaxınlığındakı San–Stefano şəhərində müqavilə imzalandı. Müqaviləyə görə, Çernoqoriya, Serbiya və Rumıniya müstəqil dövlətlər elan olundu, Bosniya və Herseqovinaya muxtariyyət verildi, Bolqarıstan Türkiyənin vassal asılılığında olan dövlətə çevrildi. Qars, Bəyazid və Cənubi Bessarabiya Rusiyanın tabeçiliyinə verildi.

Türkiyədə yaşayan ermənilərə muxtariyyət vədlərinin verilməsi orada və Cənubi Qafqazda yaşayan ermənilər arasında terrorçuluq və separatizm meyillərini gücləndirdi, regionda sabitliyin pozulmasına yol açdı. Balkanlarda və Qafqazda bir milyondan çox Osmanlı vətəndaşı qaçqın vəziyyətinə düşdü.

“Əkinçi” qəzetinin bağlanmasına təsir göstərən amillərdən biri də məhz bu müharibənin başlanması olmuşdu. Məsələni daha aydın və təfərrüatı ilə dərk etmək üçün Həsən bəy Zərdabinin özünə müraciət edək: “Əkinçi”nin əvvəlinci bədbəxtliyi qubernator Staroselskinin Bakıdan getməyi oldu... İkinci və böyük bədbəxtliyi Osmanlı davasının başlanmağı oldu. Nə qədər Osmanlı davası başlanmamışdı, bir tövr yoğun ilə (yeni qubernator Aleksandr Yulianoviç fon der Bryuge nəzərdə tutulur – H.H.) yola gedirdim. Elə ki, dava başlandı, özləri rus olmayan, amma rus dövlətinə ixlas göstərmək istəyənlər, əz an cümlə bu yoğun hər bir cəhətdə artıq diqqət cəlb edib qəzetə çıxarmağı düşvar elədilər (çətinləşdirdilər – H.H.).

Əslində “Əkinçi”yə digər qəzetlərdəki siyasi xəbərləri götürüb dərc etməyə icazə vermişdilər, lakin senzor buna imkan vermirdi, siyasi xəbərlərin dərc olunmaması abunəçilərin ciddi narazılığına səbəb olurdu.

Həsən bər Zərdabi 1905-ci il dekabrın 28-də və 1906-cı il yanvarın 4-də “Həyat” qəzetində dərc olunmuş “Rusiyada əvvəlinci türk qəzetəsi” adlı məqaləsində üzləşdiyi çətin və mürəkkəb durumu belə təsvir edir: “Müsəlmanların düşmənləri ki, Staroselskinin vəqtində bir iş görə bilmirdilər, hər tərəfdən “Əkinçi”nin üstə tökülüb onun bağlanmağına səy etdilər. Jandarma polkovnikinə hər gündə məndən və “Əkinçi”dən adsız “donoslar” göndərdilər...

Elə ki, Dağıstanda şuluqluq başlandı, “Əkinçi”nin günü dəxi artıq qərə oldu. Bir gün Nəcəf bəy Vəzirovun məqaləsi ki, Moskvadan göndərmişdi, vermişdim düzməyə. Məqalədə bir dərviş bazarda dükanların qabağında qəsidələr oxuyub onları elm təhsil etməyə çağırırdı. Senzor qol çəkib çap olmağa izin vermişdi. Qəzetə çap olub paylanandan sonra qubernatorun hökmünə görə o nömrəni bağlayıb məni istədilər. Gedib gördüm ki, mənim Minasovum ordadır. Qubernator buyurdu ki, Minasov deyir ki, dərvişin sözlərinin qeyri mənası var. Ona görə nömrəni bağlayıb sənə hökm edirəm ki, bir qeyri nömrə çap edəsən. Cavab verdim ki, qeyri nömrə çıxarda bilmərəm. Mən gedəndən sonra qubernator özü bir nömrə çıxardıb payladı. Çünki nömrə mənim adımdan çıxmışdı, mən təvəqqe elədim ki, dəxi mənim adımdan qəzetə çıxarmasınlar”.

Beləliklə, “Əkinçi” 1877-ci il sentyabrın 29-da fəaliyyətini dayandırdı. Qubernatora yalan məlumat verərək qəzetin bağlanması üçün alçaqcasına səy göstərən mürəttib Minasov milliyyətcə erməni idi və ilk gündən “Əkinçi”də işləyirdi. Digər soydaşları kimi türkə düşmən kəsilmiş bu rəzil məxluqun bütün varlığı pislikdən yoğrulmuşdu.

Xalqımızın ictimai-siyasi və mədəni həyatında mühüm tarixi hadisə olan “Əkinçi” qəzeti 1877-ci ildə fəaliyyətini dayandırsa da, milli mətbuatımızın ilk nümunəsi kimi qəzet fikir və söz azadlığı, milli özünüdərkin yüksəlişini və peşəkar jurnalistikanın inkişafını hədəfləyən yeni bir epoxanın başlanğıcını qoydu.

“Əkinçi”dən sonra “Ziya”, “Ziyayi Qafqaziyyə” (1879–1884), “Kəşkül” (1883–1891), “Kaspi” (1881–1919), “Şərqi–Rus” (1903–1905), “Həyat” (1905–1906), “Təzə həyat” (1907–1908), “Sədayi–Qafqaz” (1915–1916), “Azərbaycan” (1918–1920) kimi demokratik məzmunlu qəzetlər, “Molla Nəsrəddin” kimi səsi-sədası Vətənin sərhədlərini aşan, geniş oxucu auditoriyası qazanan jurnallar nəşr olundu.

Bu gün Azərbaycan milli mətbuatının inkişafında önəmli xidmətləri olan Həsən bəy Zərdabini, Hacı Səid Əfəndi Ünsizadəni, Cəlal Əfəndi Ünsizadəni, Əsgər Ağa Goranini, Nəcəf bəy Vəzirovu, Məhəmməd ağa Şahtaxtinskini, Üzeyir bəy Hacıbəylini və başqa vətənpərvər ziyalılarımızı böyük ehtiram və qədirbilənliklə anırıq. Mükəmməl qələm sahibi olan bu böyük mütəfəkkirlərin Vətən və millət qarşısındakı xidmətləri ölçüyəgəlməzdir.

Sovet hakimiyyəti illərində Azərbaycan mətbuatı kommunist ideologiyasının təsiri altında olsa da, milli mətbuatımızın mütərəqqi və zəngin təcrübəsi qorunub saxlanmış, dilimiz, milli varlığımız, mənəvi dəyərlərimiz aşınmaya məruz qalmamışdır. Bu dövrdə təsis edilən çoxsaylı qəzet və jurnallar, radio və televiziya kanalları tariximizin, elmi-texnoloji nailiyyətlərimizin, ədəbiyyatımızın, mədəniyyətimizin təbliğinə və yayılmasına xüsusi diqqət yetirmişlər.

Azərbaycanın müstəqillik qazanması ilə milli mətbuatımızın, fikir və söz azadlığının qarşısında geniş üfüqlər açıldı.

Ulu öndər Heydər Əliyevin hakimiyyətə qayıdışından sonra ölkədə azad və demokratik mətbuatın inkişafına mane olan məhdudiyyətlər aradan qaldırıldı, mətbuatın inkişafına, təkmilləşdirilməsinə, söz və mətbuat azadlığının genişləndirilməsinə yönəlmiş qanunvericilik bazası yeniləndi, müasir dünya standartlarına uyğunlaşdırıldı. Kütləvi informasiya vasitələrinin maddi-texniki bazasının möhkəmləndirilməsinə dair bir çox fərman və sərəncamlar imzalandı.

Ulu öndər Heydər Əliyevin 1998-ci il avqustun 6-da imzaladığı “Ölkədə söz, fikir və mətbuat azadlığının təmin edilməsi sahəsində əlavə tədbirlər haqqında” Fərmana uyğun olaraq mətbuat üzərində senzura ləğv olundu. Açıq sözü həqiqətin aynası adlandıran ümummilli lider mətbuat təmsilçilərindən obyektivlik tələb edir və onlara öz peşə borclarını yerinə yetirmək üçün hərtərəfli dəstək ifadə edirdi: “Mən Azərbaycanda söz və mətbuat azadlığının təminatçısıyam və heç kəsə imkan verməyəm ki, bu prinsiplər pozulsun”.

Ulu öndər “Kütləvi informasiya vasitələrinə dövlət qayğısının artırılması sahəsində əlavə tədbirlər haqqında” imzaladığı sərəncamla bu sahədə problemlərin aradan qaldırılması üçün səmərəli imkanlar yaratdı.

Təqdirəlayiq haldır ki, bu mütərəqqi ənənələr bu gün möhtərəm Prezidentimiz, Müzəffər Ali Baş Komandan cənab İlham Əliyev tərəfindən ləyaqətlə davam etdirilir. Azərbaycan sürətlə inkişaf edən, uğurlu xarici siyasət yeridən regional lider, ötkəm söz sahibi olan nüfuzlu dövlətdir. Dövlətin demokratik mətbuata, azad sözə, fikir plüralizminə davamlı dəstəyi və qayğısı peşəsinə hörmətlə yanaşan hər bir vicdanlı, obyektiv qələm sahibində haqlı razılıq və böyük məsuliyyət hissi doğurur. Zəngin və mütərəqqi ənənələrə söykənən Azərbaycan mətbuatı ölkədə hüquqi dövlət və vətəndaş cəmiyyəti quruculuğunda demokratiyanın, siyasi plüralizmin mühüm amili kimi çıxış edir. Avroatlantik məkana inteqrasiya yolu tutan ölkəmiz artıq söz və mətbuat azadlığının təmin olunması istiqamətində mühüm beynəlxalq sazişlərə və konvensiyalara qoşulub və öz öhdəliklərini ləyaqətlə yerinə yetirir.

Möhtərəm Prezidentimiz cənab İlham Əliyevin “Azərbaycan Respublikasında media sahəsində islahatların dərinləşdirilməsi haqqında” 12 yanvar 2021-ci il tarixli Fərmanında medianın fəaliyyətini tənzimləyən qanunvericilik bazasının formalaşdırılması, media subyektlərinin iqtisadi müstəqilliyinin gücləndirilməsi, jurnalistlərin sərbəst fəaliyyətinin təmin olunması istiqamətində görülən işlər yüksək dəyərləndirilir, qarşıda duran vəzifələr müəyyənləşdirilir. Fərmanda informasiya məkanında yeniliklərin intensiv xarakter aldığı, kommunikasiya vasitələrinin sürətlə inkişaf etdiyi, mütərəqqi texnologiyaların, iş metodlarının tətbiq olunduğu indiki dövrdə media sahəsində keyfiyyət dəyişikliklərinə ehtiyac yarandığı xüsusi vurğulanır. Fərmanda deyilir: “Qlobal informasiya mühitinin müəyyənləşdirdiyi fəaliyyət prinsiplərinə uyğun olaraq modernləşmə, rasionallıq, qabaqcıl texnologiyaların geniş tətbiqi, aparıcı trendlərin izlənməsi və digər şərtləri özündə birləşdirən innovativ təkamülün yaratdığı imkanlardan Azərbaycan mediasının daha çox bəhrələnməsi, onun şəffaflıq və vətəndaş məmnunluğu prinsiplərinə əsaslanan, cəmiyyətin obyektiv və peşəkar şəkildə məlumatlandırılmasına xidmət edən fəaliyyətinin stimullaşdırılması üçün bu sahədə əsaslı islahatlar aparılmasına zərurət yaranmışdır”.

Bu fərmana uyğun olaraq Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi publik hüquqi şəxsin yaradılması, agentliyin nizamnaməsinin təsdiq olunması, “Media haqqında” Azərbaycan Respublikasının Qanununun işlənib hazırlanması müasir tələblərə cavab verən yeni medianın formalaşması və inkişafı üçün geniş imkanlar yaratdı.

Ötən əsrin 80-ci illərinin sonunda erməni separatçılarının açıq hücumlarına məruz qalan Azərbaycan ağır problemlərlə üzləşmişdi. Az sonra torpaqlarımızın bir qismi Ermənistan Silahlı Qüvvələri tərəfindən işğal olundu. Ermənistan münaqişənin həllinə münasibətdə qeyri-konstruktiv mövqe tutaraq torpaqlarımızı 30 il ərzində işğal altında saxladı, obyektivlikdən uzaq saxta məlumatlar yayaraq beynəlxalq ictimaiyyəti aldatdı, ictimai rəyi çaşdırdı, havadarlarının və erməni lobbisinin köməyi ilə Azərbaycan həqiqətlərinin yayılmasına əngəl törətdi. Azərbaycan hər zaman bütün regionda, Cənubi Qafqazda sabitlik və tərəqqi naminə münaqişənin konstruktiv həllinə yönəlmiş siyasi iradə nümayiş etdirir, Ermənistan isə statuskvonu möhkəmləndirməyə, işğal faktını əbədiləşdirməyə çalışırdı. Ümummilli lider Heydər Əliyevin və Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan güc topladı, iqtisadi müstəqilliyini möhkəmləndirdi, Azərbaycan Ordusunun arsenalı ən müasir silah və hərbi texnika ilə gücləndirildi. Nəhayət, çox mühüm siyasi qərarın vaxtı yetişdi, Ermənistan ordusunun siyasi-hərbi təxribatlarına, “yeni ərazilər uğrunda yeni müharibə” sərsəm bəyanatına cavab olaraq Azərbaycan Prezidenti, Ali Baş Komandan cənab İlham Əliyevin əks-həmlə əmri ilə Silahlı Qüvvələrimiz hərəkətə gəldi, ölkənin bütün fəaliyyət sahələri kimi, Azərbaycan mediası üçün də taleyüklü məqam yetişdi.

2020-ci il sentyabrın 24-də Azərbaycan Prezidenti cənab İlham Əliyev BMT Baş Assambleyasının 75-ci sessiyasının ümumi debatlarında Ermənistanın Azərbaycana qarşı yeni müharibəyə hazırlaşması barədə dünya birliyinə növbəti dəfə xəbərdarlıq etdi: “Ermənistan bu yaxınlarda təcavüzkar və hücum xarakterli doktrina və milli təhlükəsizlik strategiyası qəbul edib. Biz BMT-ni və beynəlxalq ictimaiyyəti Ermənistanı növbəti hərbi təcavüzdən çəkindirməyə dəvət edirik. Təxribatların baş verməsinə və gərginliyin artmasına görə məsuliyyət tam şəkildə Ermənistanın hərbi-siyasi rəhbərliyinin üzərinə düşür”.

Etiraf edək ki, Prezident İlham Əliyevin bu müdrik bəyanatı Vətən müharibəsinin başlanması ərəfəsində informasiya həmləsinin çox sarsıdıcı və dəqiq hədəfə yönəlmiş zərbəsi oldu. 44 günlük Vətən müharibəsi dövründə Prezident, Ali Baş Komandan İlham Əliyev həm hərbi əməliyyatlara rəhbərlik etdi, həm də informasiya savaşının ön cərgəsində fədakarlıq göstərdi. Onun xalqa müraciətləri bütün əhalini ayağa qaldırdı, onu yumruq kimi birləşdirdi, zərbəni bir nöqtəyə istiqamətləndirdi. Bu müraciətlər xalqımızı və ordumuzu ruhlandırır, inamı gücləndirir, müharibənin nə ilə nəticələnəcəyini müdrikliklə bəyan edir, gücümüzü birə min qat artırırdı: “Biz haqq yolundayıq. Bizim işimiz haqq işidir, biz zəfər çalacağıq! Qarabağ bizimdir, Qarabağ Azərbaycandır!”

Möhtərəm Prezidentimizin bu sözləri bizi qələbəyə, zəfərə köklədi, milyonlarla insanın dilində qələbə nidasına çevrildi.

Hərbi əməliyyatlar dövründə ölkəmizdə dövlət və hərbi əhəmiyyətli sirlərin qanunvericiliyə uyğun olaraq qorunması istiqamətində mühüm addımlar atıldı, media resurslarında silahlı qüvvələrin, hərbi hissələrin dislokasiyası, hərəkəti, cəbhə bölgəsində dezinformasiya xarakterli mıəlumatların yayılması qadağan olundu, düşmən tərəfin informasiya təxribatının qarşısının alınması, cəmiyyətin düzgün məlumatlandırılması, əhalinin ruh yüksəkliyinin artırılması üçün preventiv tədbirlər görüldü.

Mətbuat, televiziya, radio, elektron informasiya resursları, Müdafiə Nazirliyinin Hərbi İnformasiya Mərkəzi hərbi əməliyyatlar dövründə informasiya siyasətini idarə etmək istiqamətində koordinasiyalı fəaliyyət göstərmiş, cəbhədəki vəziyyətlə bağlı bütün informasiyalar, foto və videomateriallar Müdafiə Nazirliyinə, Hərbi İnformasiya Mərkəzinə istinadən yayınlanmışdır.

2020-ci il noyabrın 8-i Azərbaycan tarixinə qızıl hərflərlə Zəfər günü kimi həkk olundu, Şuşa şəhəri işğaldan azad edildi. Noyabrın 10-da “Azərbaycan Respublikasının Prezidenti, Ermənistan Respublikasının baş naziri və Rusiya Federasiyası Prezidentinin Bəyanatı” imzalandı. Ermənistanın müharibədə məğlubiyyəti rəsmən təsdiqləndi.

Müharibə dövründə dünyanın ən tanınmış telekanallarına, mətbuat orqanlarına, media resurslarına 30-a yaxın müsahibə verən Prezident İlham Əliyev ermənilərin və onların havadarlarının yalan və böhtan üzərində qurulan təbliğatının üstündən xətt çəkdi.

Haqq səsimizi, Azərbaycan reallıqlarını dünya ictimaiyyətinə çatdıran Prezident İlham Əliyev bu həqiqəti belə ifadə edir: “Bu müharibə dövründə 30-a yaxın müsahibə vermişəm. Ömrümdə bəlkə də bu qədər müsahibə verməmişəm... O müsahibələrdə demişəm ki, biz beynəlxalq hüquqa hörmətlə yanaşırıq, biz beynəlxalq hüququ müdafiə edirik, biz ədaləti müdafiə edirik, biz BMT Təhlükəsizlik Şurasının qətnamələrini icra edirik. Demişdim ki, bizim bütün addımlarımız beynəlxalq hüququn norma və prinsipləri əsasında, əxlaq əsasında görülüb və bütün addımlarımız bu istiqamətdə atılıb. İntiqamımızı aldıq, işğalçıdan aldıq”.

Açıq etiraf edək ki, müzəffər Ali Baş Komandan, Prezident İlham Əliyev Vətən müharibəsi dövründə informasiya savaşının önündə gedərək xalqa müraciətləri, verdiyi müsahibələr, “Twitter” hesabında təqdim etdiyi paylaşımlarla qlobal məkanda media mənsublarına analoqu olmayan mübarizə örnəkləri verdi. Ermənistan dövlətinin, onların havadarlarının, erməni lobbisinin sifarişi ilə təxribat xarakterli suallarla Azərbaycan Prezidentindən müsahibə almaq üçün ölkəmizə gələnlərin və burada möhtərəm Prezidentimizdən “ustad dərsi” alanların bir də nə vaxtsa, sərhədimizə ayaq basmağa cəsarət edəcəyinə inanmıram!

Qarabağ bizimdir! Qarabağ Azərbaycandır! Kimsə bu həqiqəti unutmağa cəsarət etməsin!

***Həsən HƏSƏNOV,***
***“Xalq qəzeti”nin baş redaktoru***